# "Mədəniyyət və kommunikasiya: müasir media strategiyaları" mövzusunda təlim keçirilib

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Mədəniyyət və kommunikasiya: müasir media strategiyaları" mövzusunda təlim keçirilib. Milli Mətbuat Günü münasibətilə reallaşan təlimdə Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən müəssisələrin media və kommunikasiya üzrə məsul əməkdaşları iştirak ediblər.**



Nazirlikdən bildirilib ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimova tərəfindən aparılan təlimdə alim mədəniyyət və kommunikasiya məfhumları ilə bağlı fikirlərini bölüşüb. O bu sahədə müasir beynəlxalq təcrübədən danışıb, əsas tendensiyaları konkret faktlarla diqqətə çatdırıb.

Təlimin gedişində media ilə ünsiyyət, rəqəmsal kommunikasiya strategiyaları və s. anlayışlar barədə də söhbət açılıb, qeyd olunan sahə üzrə fəaliyyət göstərən əməkdaşların diqqət yetirməli olduğu məqamlar vurğulanıb.

Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin müdiri Aynur Kərimova təlimin əhəmiyyətini yüksək qiymətləndirib.

Azərbaycan.-2025.- 23 iyul (№ 150).- S.11.